**UOT 745/749**

**Nazilə Hüseynova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**AZ 1029, Bakı, Heydər Əliyev pr.58**
**E-mail:guseynova_86@rambler.ru**

# ASTARANIN KAKALOS KƏNDİNDƏ BƏDİİ TİKMƏ SƏNƏTİNİN ƏNƏNƏVİ DAVAMI

**Xülasə:** Məqalə bədii tikmə sənətinin Azərbaycandakı inkişaf mərhələlərinin tədqiqinə həsr olunmuşdur. Bu məqsədlə müəllif Azərbaycanın bir bölgəsini - Astaranın Kakalos kəndini və orada yayılmış bədii tikmə sənətini obyekt olaraq seçmişdir. Müəllif tarixi mənbələrə istinad edərək göstərir ki, bədii tikmə sənəti orta əsrlərdən başlayaraq XIX əsrin əvvəllərinədək yüksək inkişaf yolu keçmişdir. Azərbaycanda hər zaman bu sənət növünün əsas məktəbləri mövcud olmuşdur. Hal-hazırda da Azərbaycanın bir çox rayonlarında bu sənət davam etdirilir. Tikmə sənəti əsasən libasların üzərində, pərdə, örtük, süfrə, balış, mütəkkə, yastıq, yorğan kimi məişət əşyalarının üzərində həyata keçirilmiş naxışlarda özünü göstərir. Azərbaycanda tikmə sənəti ilə yaradılmış belə sənət əsərlərinin çoxluğu xalqın estetik zövqünü göstərir. Məqalədə bu məsələlər geniş materiallar əsasında daha ətraflı tədqiq edilmişdir.

**Açar sözlər:** bədii tikmə, parça, ornament, naxış elementi.

Dekorativ-tətbiqi sənətin müxtəlif növləri arasında bədii tikmə sənətinin özünəməxsusluğunu şərtləndirən xüsusiyyətlər eyni zamanda bölgələr üzrə formalaşan bədii ifadəsinə görə fərdi xüsusiyyətlərə malikdir. Məsələn, Xanduz adlanan bədii tikmə əsasən Lənkəran-Astara bölgəsində geniş yayılaraq istifadə olunurdu. Bu ənənə bu gün də yerli sənətkar-rəssamlar tərəfindən davam etdirilməkdədir. Milli tikmələrin məhəlli növü olan xanduz texnikası ilə əsas olaraq süfrələr hazırlanır. Texniki xüsusiyyətlərinə görə ilk olaraq parçanın toxuma telləri müəyyən qaydada çıxarılıb şəbəkələnir, daha sonra isə onun səthində iynə, iki ədəd qasnaq və müxtəlif rəngli ipək, iplik, yun sap vasitəsilə tətbiq olunur. Hazırlanmış parçalar üzərində bir çox hallarda yerli həvəskar sənətkarlar tərəfindən hazırlanaraq həyata keçirilir. Bu zaman kətan parçanın əriş və arğacı uyğun sayla ara-sıra çıxarılaraq parçanı seyrəkləşdirir və beləcə onu şəbəkə formasına salır.

Bütün bunlardan sonra nəzərdə tutulmuş naxış parça üzərinə bədii tikmənin texniki qaydavə imkanları ilə köçürülməyə başlayır. Bunun üçün usta əvvəlcə şəbəkəli parçanı qasnağakip keçirilmiş məxmər, atlaz, ağ, kətan və s. parça üzərinə qoyur, sonra əlində olan hazır naxış nümunəsinə baxaraq, rəngli saplarla bəzəyi say hesabı ilə işləməyə başlayırdı. O, yeni ilmə əldə etmək istədikdə iynəni say üzrə şəbəkəli saplardan eninə və bir də uzununa götürürdü. Çox vaxt iynə şəbəkəyə çəpəki keçirilirdi. Bunun sayəsində süfrə bəzəkli hala düşürdü.

Ümumiyyətlə, tarixi mənbələrdən məlum olduğu qədər bədii tikmə sənətinin orta əsrlərdən başlayaraq XIX əsrin əvvəllərinədək yüksək inkişaf yolu keçdiyi müəyyən olunur. Bu sənət növünün əsas məktəbləri bir çox Azərbaycan şəhərlərində mövcud idi. Lənkəranın adını qeyd olunanlar sırasında xüsusilə qeyd etmək olar ki, müasir dövrümüzdə belə ənənəvi xüsusiyyətlərin yerli sənətkarlar tərəfindən davam etdirildiyininşahidi ola bilərik.

Azərbaycan xalqı hələ qədim zamanladan öz zahiri görünüşlərnə, o cümlədən həyatımızın, yaşantımızın bütün sahələrində istifadə edilən əşya mühitinin estetikliyinə yüksək dəyər vermişlər. Libasların üzərində, pərdə, örtük, süfrə, balış, mütəkkə, yastıq, yorğan kimi məişət əşyalarının üzərində həyata keçirilmiş naxışlar xalq sənətinin ən çox yayılmış növü hesab edilən tikmə üsulu ilə həyata keçirilmiş və bir çox bölgələrdə keçirilməkdə də davam etdirilir. Parçalar üzərində salınmış zərif tikmələr özünün nəfis tərtibatı ilə xalqın estetik zövqünü müəyyənləşdirmişdir. Hər bir sapın rəngarəngliyinin yaratdığı harmonik ifadə, məharətli ornamentasiya, günümüzdə belə öz estetik mahiyyətini itirməmişdir. Naxçıvan, Şuşa, Təbriz, Şamaxı, Gəncə, Qubada olmuş əcnəbi səyyahların Azərbaycan bədii tikmələrinin yüksək texniki və bədii xüsusiyyətlərinə verdikləri böyük dəyərləri onların yazılarından, qeydlərindən görmək mümkündür.

Bədii tikmədə daha çox rəngli ipək saplardan istifadə olunur ki, burada naxış elementlərini həkk edilməsində sənətkarın şəxsi zövqü, formalaşan ənənəvi üsullar böyük əhəmiyyət daşıyır. Bu zaman rastlaşan ornamentlər arasında əsasən çiçək, gül, yarpaq elementlərindən istifadənin genişliyi diqqət çəkir. Bu cür tikmələrin üzərində əsas olaraq sünbül, qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq, nar, heyva, alça çiçəkləri kimi təsvirlərin harmonik ifadəsi ilə yanaşı müxtəlif yarpaq elementlərinə də geniş yer verilir, naxışların özünə məxsusluğunu müəyyənləşdirirdi.

Sadəcə Lənkəran-Astara zonası deyil, bütünlükdə milli Azərbaycan bədii tikmə sənətinə diqqət yetirdikdə onun zəngin və rəngarəng xüsusiyyətlərə malik olduğunu görərik. Əlbəttə ki, müxtəlif növ saplar, parçalar, muncuqlar və digər bədii vasitələrin zövqlə ifadəli istifadəsi həmin rəngarəngliyi şərtləndirən amillərdir. Təkəlduz, güləbətin, saya, piləkli, cülmə, muncuqlu, qurama, oturtma kimi texniki xüsusiyyətlərə bölünən tikmə sənətinin hətta XVI-XVII əsrlər Azərbaycan əhalisi arasında geniş yayıldığı müəyyən olunsa da onların istifadə etdikləri təkəlduz, güləbətin, muncuqlu və qurama daha geniş istifadə olunduğu öz təsdiqini tapır. Doğrudur bu qeyd edilən yüzilliklərdə artıq güləbətin, pilək və digər növlər tədricən aradan çıxmağa başlasa da, təkəlduz tikmə ənənələri öz aktuallığını saxlamaqda idi. “Zəncirli naxış” mənasını verən təkəlduzun əsasında dayanan daha qədim dövrlərdən bəri ənənəvi olan zəncirli naxış elementləri bu növün texniki xüsusiyyətlərini müəyyənləşdirir. Milli Azərbaycan İncəsənət Muzeyinin kolleksiyasındakı qorunan təkəlduz nümunələri özünün zəngin ornamentasiya və kompozisiya xüsusiyyətlərinə görə müxtəlif olduğu qədər də böyük maraq doğurur.

Qeyd etdiyimiz kimi Lənkəran-Astara bölgəsində xüsusilə inkişaf edən tikmə sənətinin XX əsr və daha yaxın dövrlərdə belə ənənəvi xüsusiyyətləri davam etdirilməkdədir. Misal olaraq Kakalos kəndində Xanduz tikmə növünə daxil 1947-ci ilə aid jilet örtüyü maraq doğurur. Jilet örtüyü asılan paltarlar üzərindən keçirilərdi. O zamanAzərbaycanın ucqar yerlərində şkaflar, dolablar olmadığından bu cür örtüklərdən istifadə edilərdi ki, açıq ev mühitində asılan paltarlar görünməsin. Bu həm paltarın təmiz qalması,həm də estetiklik mənasında istifadə olunurdu. Hətta orta əsrlərdə jilet örtüyündən daha geniş şəkildə, hətta şəhərlərdə də böyük əhəmiyyət verilirdi. Ağ parça üzərində qırmızı vəboz saplarla edilmiş naxış elementlərinin zərifliyini göstərən çox da sıxlıq təşkil etməyən ornamentasiya xüsusiyyətləri sadə tikmə üsulu ilə həyata keçirilmişdir. Lakin bu sadəliyinözündə belə incə zövqün əlamətləri diqqət çəkir. Kənar haşiyələrdə dördləçəkli xırda yarpaq elementlərinin sistemli düzülüşü ilə boz və qırmızının bir-birini əvəz etməsi ilə ikicərgə üzrə davam edir. Örtüyün aşağı hissəsində nar çiçəkləri və onların arasında iki ədədzanbaq gülünün təsviri zövqlə həkk edilmişdir. Bu bəzəklər mərkəzi təsvirin hər iki yan tərəfindən yuxarıya doğru əvvəlcə zanbaq, sonra isə nar çiçəyinin əvəzlənməsi ilə təkrarlanır. Örtüyün yuxarı hissəsində isə iki üz-üzə dayanmış tovuzquşu təsviri verilmişdir. Mərkəzdə sanki gül dibçəyi və onun içindən kənara yayılan şaxələnmiş çiçək və yarpaq elementlərinin harmonik tərənnümü tikmənin kompozisiyasını gözəl görüntülü şəkildə təqdim edir.

Digər bir jilet örtüyü yenə də Kakalos kənd sakini Xanım İsaak qızı Şabanova tərəfindən 1930-cu ildə həyata keçirilmiş nümunədə rast gəlirik. Digər jilet örtüyündən fərqli olaraq burada naxışlar özünün daha incə və sadə forması ilə diqqət çəkir. Bu sadəliyi ilk öncə tikmənin kənar haşiyəsinin daha incə və zərif toxunuşu ilə izah etmək olar. Bundan əlavə örtükdə sadəcə ağ və qırmızı sapdan istifadə olunmuşdur. Buna baxmayaraq zərif əl işinin yaratdığı bəzək elementləri örtüyün xoş görüntüsü ilə maraq doğurur. Ağ rəngin üzərində belə ağ sapın yaratdığı incəlik diqqətdən kənarda qalmır. Beşləçəkli xırda güllərin birləşdirirən sadə həndəsi, xətti elementlər bütün örtük boyu onu haşiyələyir. Örtüyün hər dörd küncündə lentvarı naxışların yaratdığı ornamentasiya təkrarlanır. Bədii tikmənin mərkəzində isə çox incə gül budaqları və onun üzərində xırda ləçəkli çiçək təsvirləri verilmişdir. 1930-2016-cı illərdə yaşayıb yaratmış kənd sakini Fərbiyə Şabanovanın həyata keçirdiyi jilet örtüyünün bədii həlli isə nisbətən rənglərin daha tünd olması ilə maraq doğurur. Burada qırmızı və qaranın harmonik qarşılaşdırlması nəticəsində əldə edilmiş naxışların ağ parça üzərində yaratdığı ifadəli görüntü ənənəvi bəzək elementlərinin istifadəsi ilə yaradılmışdır. Haşiyədə dördləçəkli gül elementlərini birləşdirən həndəsi naxış elementləri ilə stilizə edilən haşiyə olduqca zərif formada dördkünc şəkildə örtüyü əhatələyərək bədii tikmənin hər dördküncə verilmiş bəzək eynilə təkrarlanır. Bəzəyin mərkəzində qara kvadratdan dördküncə qırmızı və qara saplarla işlənmiş kiçik dördkünc element ayrılır, həmin elementlər incə qara xətlə birləşdirilmişdir. Onların da hər birinin aralıqlarında cüt qırmızı kiçik kvadratlar verilmişdir. Jilet örtüyünün mərkəzindəki naxış isə kiçik gül qabının içərisindən uzanan qara budaqlı qırmızı xırda çiçəkli təsvir forması ilə tikmənin bədii həllinə xüsusi çalar bəxş etmişdir.

Jilet örtüyünün aşağı hissəsində “1930-2016 - Xanım Fərbiyyə” kimi tarix və kəlmələr yazılaraq onun xatirəyə çevrilmiş təsvir həllinin kimə həsr edildiyini müəyyənləşdirmişdir. Kakalos kəndində jilet örtüyünün çox qədim nümunəsinə də rastlanmışdır ki, onun üzərindəki bəzək elementləri demək olar ki silinib getsə də bir

zamanlar burda bədii tikmə sənətinin daha mürəkkəb formada inkişaf etdirildiyini təsdiqləyir. Burada əsasən yaxın zamanlardakı çit parçaların əksinə olaraq daha incə zərif ipəkdən istifadə edilmişdir. İpək parçanın özünün belə rəngli forması, nar rəngli səthi ipəyin zövq oxşayan bədii tərtibata malik olduğunu göstərir. Onun üzərində yaradılmış bəzək elementlərin kiçik hissləri XIX-XX əsrlərin bəzək elementlərinin əsasını qoyan ornamentasiya xüsusiyyətlərinə malik olduğundan xəbər verir. İpəyin üzərinə vurulan naxışlar qızılı saplarla həyata keçirilmişdir. Nar çiçəyi rənginin üzərində qızılı sapların yaratdığı harmonik ifadəni təsəvvür etməmək belə mümkün deyil.

Kənddə qeyd edilən nümunələr arasında paltar ütünün də təyinat xarakteri jilet örtüyü ilə eyni mahiyyət daşısa da onun bir qədər fərqli forması məmulatlar arasındakı fərqi izah edir. Paltar üstü hər iki tərəfdən mismarla divara vurulurdu. Onun paltarın üzərindən asılması nəzərə alınaraq uc hissələri bir qədər uzun olurdu. Nümunə olaraq ağ parçadan hazırlanan paltarüstü nümunəsinin bədii tərtibat xüsusiyyətlərinə diqqət yetirək. Onun aşağı və yuxarı hissəsində ilmələrlə toxunmuş bəzəklər əlavə edilmişdir. Parçanın dördkünc səthi üzərinə vurulan naxış elementləri yuxarıda qeyd edilən jilet örtüklərinə nisbətən daha sıx və mürəkkəbdir. Tikmənin üzərində həm nəbati elementlər, güllü naxışlar, həm də quş və heyvan təsvirlərindən istifadə olunmuşdur. Bununla yanaşı haşiyədə verilmiş həndəsi xırda elementlərin haşiyə kimi istifadəsi də örtüyün kompozisiya həllini daha da dolğun etmiş və orta hissədəki bəzəklərin xüsusi olaraq nəzərə çarpmasına imkan yaratmışdır. Mərkəzdə zanbağın açılaraq uzunluğa doğru xüsusi naxışlarla ətrafa yaydığı bəzəklər öz canlılığı ilə zövq oxşayır. Quşların, çiçəklərin, yarpaqların, eləcə də digər elementlərin uyğun qarşılaşdırlması böyük zövqlə həyatakeçirilmişdir.

Bir başqa paltarüstünün bəzək elementləri açıq narıncı saplarla daha sadə ornamentasiya ilə həyata keçirilmişdir. Örtüyün kənar haşiyələri xırda beş və altı ləçəkli çiçək elementlərinin bir-birini təkrarlayan sistemli ifadəsi ilə həyata keçirilmişdir. Dördkünc mərkəzi bəzəyin ətrafına atılmış kiçik və bir qədər böyük naxışlar da demək olar ki haşiyədə istifadə edən çiçək formalarının təkrarlanması ilə yaradılmışdır. Bu zaman meydana çıxan sadə və lakoniklik özlüyündə zərifliyi, incəliyi ifadə edir. Mərkəzi hissədə verilən romb formanın kənarları qarmaqlı ornamentasiya quruluşu ilə öz həllini tapmış, onun daxili hissəsində isə bir-birinə sarmaşan çiçək və onun budaqları olduqca xırda formalarla verilmişdir.

Ümumiyyətlə, jilet örtüyü, paltar örtüyü kimi tikmələrin bədii quruluşundakı səciyyəvi xüsusiyyət onların kiçik haşiyələlərdən ibarət olaraq, göl kimi ifadə edilən mərkəzi hissədən və onun ətrafındakı digər bəzək elemetlərindən ibarət olunmasının demək olar ki, bütün bu tipli nümunələrdə təkrarlanması kimi izah edilə bilər.

Məişətdə istifadə olunan məmulatlar arasında qadınların dəsmal, döşlük kimi əşyaların estetik zövqlə həyata keçirilməsinə xüsusi diqqət verilməsi Kakalos kəndinə aid aşkarlanmış nümunələrdən özünü bəlli edir. Belə nümunələr arasında xanduz texnikası iləbəzədilən iki fərqli dəsmal nümunəsini nəzərdən keçirək.

Uzunsov ağ pambıq parça aşağı və yuxarı hissələrində verilmiş bəzəklər eynilə təkrarlanır. Bu bəzək elementi digər nümunələrdən fərqlənərək daha mürəkkəb həlli ilə maraq doğurur. Nəbati və həndəsi elementlərin stilizasiyası ilə həyata keçirilmiş naxışlar sağan qabığı rəngli saplarla həyata keçirilmişdir. Aşağı bölümdə üç hissədə birləşən kiçik çiçək naxışları səpələnmiş halda verilsədə onların özlərində belə bir nizami simmetriyanın olduğunu görürük. Burdan belə məlum olur ki, yerli naxış

ustaları bu

sənətə xüsusi diqqətlə yanaşaraq, hər bir naxışın işlənməsində zərgər dəqiqliyi nümayiş etdirmişlər. Ondan bir qədər yuxarı ölçüdə üç hissəli iri romb formasını yaradan xətlər yarpaq elementlərinin olduqca zərif formaları ilə həyata keçirilmişdir. Hər bir rombun və kənarlardakı yarımrombun daxili hissəsində isə eyni formada haşiyələnmiş ortaya sığacaq formada romblar verilmişdir. Dəsmalın naxışlar olan hissəsinin yuxarı bölgəsində isə zərif budaqlar uzanaraq incə yarpaqlarla bəzədilmiş şəkildə özünün hramonik ifadəsini təqdim edir.

Bölgəyə aid digər bir dəsmalın üzərindəki rəngarəng saplarla verilmiş tikmələrisə bundan əvvəlki dəsmalın naxış forması ilə nisbətdə tamamilə fərqlidir. Burada birneçə rəngdən – sarı, qırmızı, mavi, yaşıl kimi çalarlardan istifadə edilmişdir. Bir qayda olaraq beşləçəkli sadə gül və xırda yarpaq elementlərinin rənglərin yaratdığı bədii ifadəyə uyğun olaraq sistemli təkrarlanması dəsmalın hər iki sonluğunda eynilə təkrarlanmışdır.

Kakalos kənd sakini Əhədova Tacinin 1940-cı ildə həyata keçirdiyi döşlüyün bədii həlli sadə, lakin olduqca estetik zövq daşıyıcılığı ilə diqqət çəkir. Döşlükdə yerli olaraq nar çəhrayı rəngli parçadan istifadə edilmişdir. Onun üzərində verilən naxışlar isə özünün rəngarəngliyi ilə döşlüyün formasında yerli sənətkar tərəfindən bədii zövqün ifadəsini təqdim etmişdir. Düzbucaqlı xətlərin sıralanaraq aşağıdan yuxarıya doğru zamanistiqamətdə həll edilməsi xüsusilə tikmənin bədii həllinə mükəmməllik bəxş edir. Hər bir düzbucaqlının üzərində bir-birinə hərlənərək keçirilən dalğalı xətti naxışlarla yanaşı, kiçik nəbati elementlərin də verilməsi ilk baxışda sadə görünən döşlüyün üzərində böyük həvəsvə bacarıqla işlənmiş naxışların zövqlə həyata keçirildiyini sübut edir. Tikmələr arasında sırf aksesuar xarakteri daşıyan xalça örtüklərinə də rast gəlinir ki, bunların da ənənəvi xarakter daşıdığını qeyd etmək olar. Bunlar divardan asılmış xalçanın üstündən çarpaz şəklində bəzək kimi vurulurdu.

1957-ci ilə aid dəbərəgöz bənövşə adlanan xalça üstünün maraq doğuran bədii həlli rəngarəng saplarla işlənmişdir. Dəbərəgöz bənövşə dörd ləçəkli olur, onun iki ləçəyi bir, iki ləçəyi bir olurdu. Hətta kənar kəsiklərinin formasında belə düzbucaqlı formalardanfərqli olaraq onun bəzəkli yan tərəfləri açıq narıncı saplarla baqlanmışdır. Örtüyün üzərində üç hissədən ibarət təkrarlanan bəzək elementi bənövşəyi, narıncı, qəhvəyi, yaşıl, göy kimi çalarlarla işlənmişdir. Qəhvəyi rəngli sapın ifadəsi isə verilən lentşəkilli naxışın plastik formada hərəkətlənməsi çiçəklərin formasındakı gözəlliyə xüsusi canlılıq bəxş etmişdir.

Sonda gəlinmiş nəticə kimi qeyd etmək olar ki, Azərbaycanın milli bədii tikmə sənəti digər bölgələrdə olduğu kimi Kakalos kəndində də özünün ənənəvi formaları ilə yanaşı yerli sənətkarların fərdi yaradıcılıq üslubuna xas formalarla son dövrlərə qədər davam etdi

**Ədəbiyyat:**


1. Abbasov Ə.S.. Qasımov A.H. Talış zonasının epiqrafik abidələrindən.Bakı: 1994
2. Ağasıyeva E.. Azərbaycan bədii tikmə sənəti / «Mədəniyyət» qəz. 2018, 10 yanvar, s.13.
3. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: 1999
4. Mustafayev A.N. Lənkəran bölgəsinə 1978-ci il etnoqrafik səfərinin hesabatı
5. Cavadov Q. Talışlar. Bakı: 2004
6. Sarıyeva İ. Təkəlduzlar - bədii tikiş sənətimizin örnəkləri // Bakı xəbər. 2015, 6-9 mart, s.11.

**Назила Гусейнова**

**Традиционное продолжение искусства художественной вышивки в деревне Какалос Астаринского района**

**Резюме**

Статья посвящена изучению исторических этапов развития искусства художественной вышивки в Азербайджане. Для своего исследования автор выбрал регион Азербайджана - деревню Какалос Астаринского района и художественную вышивку. Основываясь на исторических источниках, автор утверждает, что искусство вышивания прошло долгий путь от средневековья до начала 19 века. В Азербайджане всегда существовали основные школы этого вида искусства. В настоящее время традиции этого искусства продолжается во многих регионах Азербайджана. Искусство шитья в основном проявляется на вышивке одежды, штор, гардин, скатертей, и подушек. Большинство произведений искусства, созданных искусством вышивки в Азербайджане, демонстрируют эстетический вкус народа. В статье эти вопросы были исследованы на обширном материале.

**Ключевые слова**: вышивка, ткань, орнамент, искусство.

**Nazila Huseynova**

**The traditional continuation of the art of embroidery in the village of Kakalos Astara region**

**Summary**

The article is devoted to the study of the historical stages of the development of art of embroidery in Azerbaijan. For his research, the author chose the region of Azerbaijan - the village of Kakalos in the Astara region and artistic embroidery. Based onhistorical sources, the author claims that the art of embroidery has gone a long way from the Middle Ages to the beginning of the 19th century. There have always been main schools of this art form in Azerbaijan. Currently, the traditions of this art continues in many regions of Azerbaijan. The art of sewing is mainly manifested in the embroidery of clothes, curtains, curtains, tablecloths, and pillows. Most of the works of art created bythe art of embroidery in Azerbaijan demonstrate the aesthetic taste of the people. In the article, these questions were examined on extensive material.

**Keywords:** embroidery, fabric, ornament, art

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 25.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**